

**HƏSƏN MİRZƏYEV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

## HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN XİLASKARI, QURUCUSU VƏ QARANTIDIR

Böyük Atatürk demişdir: "Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığını və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır".

Azərbaycanın prezidenti möhtərəm Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir. Bu fikri cənab Heydər Əliyevin öz dediyi sözlərdən də aydın görmək olur: "Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlə yaşayıram".

Faktlar göstərir ki, cənab Heydər Əliyev Azərbaycan üçün, Azərbaycan xalqı üçün, Azərbaycan dövləti üçün çox iş görmüşdür. Onun 30 ildən artıq bir müddətdə gördüyü işləri sadalamaqla qurtarmaq olmaz. Biz burada onlardan yalnız bir neçəsini qeyd etməklə kifayətlənəcəyik.

1. 1990-cı il 20 Yanvar qırğınını ilk dəfə bütün dünyaya cənab Heydər Əliyev yaydı. SSRİ Dövlət başçısı, azərbaycanlıların qatı düşməni Qorbaçovun təqibinə və özünün ağır xəstə olmasına baxmayaraq, o, Azərbaycanın Moskvadakı səfirliyinə gedib oradakı toplantıda bütün dünyaya bəyan etdi ki, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində cinayət edilmişdir.

2. 20 Yanvar qanlı qırğınına ilk siyasi qiymәti Naxçıvanda və Bakıda Heydər Əliyev vermişdir.

3. Dağlıq Qarabağ hadisəsinə ilk siyasi qiyməti (Naxçıvanda və Bakıda) o vermişdir.

4. İki əsr müddətində rus şovinistləri və erməni millətçiləri tərəfindən Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın başına gətirilən bəlaları dövlət səviyyəsində, rəsmi şəkildə bütün incəlikləri ilə heç bir dövlət başçısı açıqlamamışdı. Bu missiyanı məhz cənab Heydər Əliyev öz üzərinə götürdü. O, 1918-1988-ci illər arasında burada yaşayan azərbaycanlıların dəfələrlə soyqırıma və deportasiyaya məruz qaldığını, bunun günahlarını elan etdi. Rusiya kimi böyük bir dövlətin, xüsusən oradakı şovinistlərin cinayətkar olduğunu dünya ictimaiyyətinə bəyan etdi. Bu məsələ ilə bağlı iki fərman verdi. Bütün dünyada yaşayan azərbaycanlıları gələcək mübarizəyə səfərbər etdi.

5. Xocalı faciəsinə və soyqırımına ilk siyasi qiyməti də Heydər Əliyev vermişdir. Ondan qabaq Azərbaycana rəhbərlik edən şəxslərin heç biri bu missiyanı üzərinə götürməmiş və yerinə yetirməmişdir.

6. Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Naxçıvandakı rus qoşunları çox sakitliklə oradan çıxarılmış və bütün ağır texnikanı qoyub getmişdir.

7. Heydər Əliyevin səyi, rəhbərliyi və uzaqgörənliyi sayəsində Naxçıvan Muxtar Respublikası SSRİ-nin saxlanılması üçün referenduma getməmişdir.

8. Naxçıvanı erməni təcavüzündən qorumaq, xilas etmək məqsədilə o, Türkiyə Respublikası ilə Qars müqaviləsini təzələdi və bununla da erməni təcavüzünün qarşısını aldı.

9. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinin, qardaş qırğınının qarşısını aldı. Naxçıvandan gəlib Gəncəyə getdi, hakimiyyətdə olan Xalq Cəbhəsi başçısı ilə, prezident Əbülfəz Elçibəy və bu hakimiyyəti devirmək istəyən Surət Hüseynovla söhbətlər apardı, vəziyyəti nizamladı, müstəqilliyimizi qoruyub saxladı. Azərbaycanın müstəqilliyini, suverenliyini məhv etməyə çalışan düşmənlərimizin arzusu gözündə qaldı.

10. Azərbaycanın müstəqilliyini istəməyən xarici və daxili düşmənlərimiz onu dörd yerə parçalamağa çalışırdı. Şimal bölgələrimizdə ləzgi, cənub bölgələrimizdə talış-muğan, cənub-qərb bölgələrimizdə kürd dövləti yaratmaq üçün dəridən-qabıqdan çıxırdılar. Hətta cənubda belə bir qurumun yaradıldığını da elan etmişdilər. Lakin dünyanın böyük siyasətçisi, Azərbaycan xalqının vətənpərvər oğlu cənab Heydər Əliyev Azərbaycan Respublikasını bu çətin vəziyyətdən qurtardı. Azərbaycan xalqını bir yerə yığdı və sabitlik yaratmağa nail oldu. Azərbaycanı təhlükədən xilas etdi.

Oljes Süleymenov Heydər Əliyevin uzaqgörənliyini qiymətləndirərək deyir: ''Heydər Əliyevdə zəngin siyasi təcrübə, kəskin məntiq və xarici prosesləri istiqamətləndirə bilmək istedadı var''.

11. Heydər Əliyev 1993-cü ildə Azərbaycana rəhbər olduqdan sonra xarici və daxili siyasətdəki səhvləri aradan qaldırdı və müstəqilliyimiz təmin olundu, respublikada sabitlik yarandı.

Y.Lujkov deyir: ''Heydər Əlirza oğlu müdrik və uzaqgörən dövlət xadimi, Azərbaycanda və dünyada layiqli hörmətə və nüfuza malik respublika rəhbəridir.''

12. Heydər Əliyevə qədər olan rəhbərlərin heç biri atəşkəsə nail ola bilməmişdir. Yalnız cənab Heydər Əliyevin düzgün siyasəti nəticəsində Ermənistan və Azərbaycan arasında atəşkəsə nail olundu. Bu da öz növbəsində insanları ölümdən qurtardı.

13. Azərbaycana qarşı olan informasiya blokadasının yarılması yalnız və yalnız cənab Heydər Əliyevə məxsusdur. Bütün Azərbaycan xalqı, bütün dünya bilir ki, o, xarici ölkələrə gedəndə özü ilə Azərbaycanın xəritələrini və digər sənədləri götürüb ayrı-ayrı dövlət başçılarına, bütün dünya ictimaiyyətinə, jurnalistlərə və başqalarına göstərib əyani şəkildə isbat edirdi ki, Azərbaycan torpaqları zorla zəbt edilib. Dağlıq Qarabağ Azərbaycan torpağıdır.



14. Xarici ölkələrdə Azərbaycan lobbisinin yaranması yalnız və yalnız möhtərəm Heydər Əliyevə məxsusdur. Heydər Əliyevə qədər olan respublika və ictimai təşkilat rəhbərlərindən heç biri belə bir addım atmamışdır, belə bir missiyanı öz üzərinə götürməmişdir. O, xarici dövlətlərdən hansına gedirsə, orada olan azərbaycanlıları bir yerə toplayıb, onlarla söhbətlər aparır, yığıncaqlar keçirir. Onların təşkilatlanması və gələcəyi haqqında məsləhətlər verir.

15. Dünya azərbaycanlılarının geniş mütəşəkkil şəkildə ilk qurultayını cənab Heydər Əliyev çağırdı.

16. Dünya Azərbaycanlıları üzrə ilk mərkəzi o yaratdı və onu idarə edən orqanı müəyyənləşdirdi. İndi bütün dünyada olan Azərbaycan lobbisi bu mərkəzdən idarə olunur.

17. Azərbaycanın NATO-ya assiosiativ üzv seçilməsi yalnız Heydər Əliyevə məxsusdur.

18. QUAM möhtərəm prezidentimiz Heydər Əliyevin təşəbbüsü və səyi nəticəsində yaradıldı. Bu böyük şəxsiyyət uzaqgörən siyasəti ilə Ukrayna, Gürcüstan, Moldaviya, Özbəkistan kimi dövlətləri bir yerə toplayıb xüsusi bir qurum yarada bildi. Bu dövlətlər Rusiyanın təsiri altında deyil, hər hansı bir məsələni müstəqil şəkildə həll etməyə nail oldular.

19. 1973-cü ildə SSRİ dövründə konstitusiyamızda Azərbaycan dilinin dövlət dili kimi qəbul olunması yalnız və yalnız Heydər Əliyevin uzaqgörən siyasəti və ciddi təkidi nəticəsində mümkün oldu. Heydər Əliyevin səsinə yalnız Gürcüstan Respublikası səs verdi. Yerdə qalan müttəfiq respublikaların heç biri bu məsələni qaldırmağa cəsarət etmədi. 1995-ci ildə isə bu məsələ konstitusiyamızda yenidən əsaslandırıldı və təkmilləşdirildi.

20. Azərbaycan dilinin respublikamızda geniş şəkildə işlənməsi və təkmilləşdirilməsi, latın qrafikasına keçilməsi ilə bağlı da cənab Heydər Əliyev yeni-yeni addımlar atdı və bununla bağlı fərman və sərəncam verdi.

21. Azərbaycan ilə xarici ölkələr arasında bağlanan neft kontraktları yalnız və yalnız cənab Heydər Əliyevin xidmətidir. 14 ölkə ilə 21 neft şirkətinin bağladığı 32 kontraktın Azərbaycanın iqtisadi inkişafı ilə yanaşı, onun müstəqilliyi, suverenliyi, toxunulmazlığı üçün də müəyyən qədər rol oynayır. Bu məsələlərin həlli yolunda qarşıya çıxan çətinliklər, edilən təzyiqlər və maneələr yalnız Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində aradan qaldırılırdı.

22. Xəzər dənizindən Avropaya axıdılacaq qaz kəmərinin reallığa çevrilməsi də Heydər Əliyevin xidmətidir.

23. Xarici dövlətlərin, bütün SNQ, o cümlədən, Qafqaz ölkələri içərisində ən çox Azərbaycana investisiya qoyulması da cənab Heydər Əliyevin siyasəti, xid-

məti, nüfuzu, dövlət quruculuğunu, kənd təsərrüfatını dərindən bilməsi sayəsində mümkün olmuşdur. Qazaxıstanın dövlət başçısı N.Nazarbayev deyir: "Heydər Əliyevin coşğun fəaliyyəti sayəsində Azərbaycan siyasi-iqtisadi dəyişikliklər və bazar münasibətlərinə keçid yolu ilə inamla irəliləyir, öz suverenliyini və müstəqilliyini möhkəmləndirir".

24. Azərbaycanda sahibkarlığın inkişafı da cənab Heydər Əliyevin adı ilə bağlıdır. Hamıya məlumdur ki, Azərbaycanın dövlət başçısı özəl sektorun inkişafı ilə bağlı neçə-neçə fərman, sərəncam və göstərişlər vermişdir. Ölkəmizdə və xarici ölkələrdə bu məsələ ilə bağlı neçə-neçə toplantılar, görüşlər keçirmiş və sahibkarlara öz dəyərli məsləhətlərini vermişdir.

25. O, respublikada rəhbər olduğu bütün dövrlərdə quruculuqla bağlı misilsiz işlər görmüşdür. Bakıda, eləcə də respublikamızın digər şəhərlərində yeni-yeni mikrorayonlar salınmış, saraylar, böyük obyektlər, yaşayış binaları tikilmişdir. Kəndlər, rayonlar böyümüş, abadlaşmış, yeni-yeni qəsəbələr salınmışdır. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə respublika əhalisi əsasən mənzillə təmin olunmuşdur. Bir sözlə, Zeynalabdin Tağıyev, Musa Nağıyev kimi Bakı milyonçularının gördüyü işləri nəzərə almasaq, bütün bunlar, əsasən, Heydər Əliyevin adı ilə bağlıdır.

26. Respublikada olan böyük körpülərin, magistral yolların salınması, dəmir yollarının çəkilişi də cənab Heydər Əliyevin xidmətidir.

27. Respublikada, xüsusən Bakı şəhərində yaşıllaşdırma işləri başlıca olaraq Heydər Əliyevin dövründə görülmüşdür. Şəhərimizin çirkablardan təmizlənməsi, ekologiyanın yaxşılaşdırılması onun dövründə mümkün olmuşdur.

28. Bakı şəhərinin su ilə təchiz olunması, Kür suyunun Bakıya gətirilməsi də Heydər Əliyevin xidmətidir.

29. Azərbaycanın dövlət və ictimai xadimlərinə, şair və yazıçılarına, mədəniyyət və incəsənət xadimlərinə, alim, həkim və müəllimlərinə yüksək adların verilməsi də yalnız və yalnız möhtərəm Heydər Əliyevin xidmətidir.

30. Respublikamızda və respublika xaricində Azərbaycanın görkəmli şəxsiyyətlərinə xeyli abidələr qoyulmuşdur ki, bunların əksəriyyəti cənab Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf edir. Heydər Əliyevdən əvvəl və sonra olan respublika rəhbərləri bu məsələyə əhəmiyyət verməmişlər.

31. Respublikanın görkəmli adamlarının yubileylərinin keçirilməsi onlara məxsus ev-muzeylərinin açılması da, Heydər Əliyevin diqqət və qayğısı sayəsində mümkün olmuşdur.

32. Respublikamızdan yüzlərlə gənclərin xaricdə təhsil almağa getməsi, müxtəlif ixtisaslara sahib olub respublikaya qayıtması, sənayenin və kənd təsərrüfatının ixtisaslı kadrlarla təmin olunması da, yalnız və yalnız Heydər Əliyevin adı ilə bağlıdır.



Qeyd etməliyəm ki, cənab Heydər Əliyevin xidmətləri bu deyilənlərlə qurtarmır. Bunların sadalanması üçün tomlar lazımdır. Bu məsələlərlə bağlı öz fikrimi mən bir neçə tanınmış adamın sözləri ilə tamamlamaq istəyirəm:

"Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin keçmiş zamanda xidmət göstərdiyi vaxt yaradılmışdır. İndi yenidən canlanma gedir. Amma hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələ sabitlikdr'' (Süleyman Dəmirəl); "Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Azərbaycanın yeni tarixinin bu günkü qurucularından biridir'' (Çingiz Aytmatov); ''Bu gün Azərbaycanı idarə edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir'' (Z.Bjezinski); "Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan firavan gələcəyin bünövrəsini qoymaqdadır" (Bill Klinton); "Azərbaycana Heydər Əliyevin başçılıq etməsi xalqımız üçün böyük şansdır. Bütün Azərbaycan xalqı, onun rəhbərliyi altında və göstərdiyi yolla irəli gedir. Mən əminəm ki, qarşımızdakı bir neçə ildə Azərbaycan Avropa ölkələrinin heç birindən geri qalmayacaqdır" (İhsan Doğramacı); "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir" (Heydər Əliyev).